UOT 32
DOI: https://doi.org/10.30546/19063.2026.06.5295

BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ KİÇİK DÖVLƏT KONTEKSTİNDƏ AZƏRBAYCANIN AVROPA İTTİFAQI İLƏ MÜNASİBƏTLƏRİ: STRATEJİ PRİORİTETLƏR VƏ ƏMƏKDAŞLIQ STRATEGİYASI

ELMAN VİDADİ OĞLU VƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının doktorantı,
Mingəçevir Dövlət Universitetinin müəllimi
Bakı ş., Səbail r., AZ 1001, Lermontov küç. 74
https://orcid.org/0009-0008-0545-2133
E-mail: elman.valiyev@mdu.edu.az

XÜLASƏ

Avropa Birliyi sülhün qorunmasını birgəlik əsasında quran, iqtisadi rəqabəti gücləndirən, azad bazar iqtisadiyyatını təmsil edən iqtisadi-siyasi birlikdir. AB yarandığı tarixdən etibarən dövlətlərarası münasibətlərdə önəmli aktorlardan birinə çevrilmişdir. Qərbdə başlanğıcı qoyulan birlik sonralar Balkanlarda və Cənubi Qafqazda özünü büruzə verdi. Bu gün də bir çox dövlət bu birliyin üzvü olmaq üçün səylər edir. Ancaq birlik hələ də möhkəm sütunlara dayanmayıb. Britaniyanın üzvlükdən çıxması və hələ də davam edən Avroskeptisizm hərəkatı buna nümunədir. Beynəlxalq münasibətlərdə müxtəlif dövrlərdə AB fərqli formada fəaliyyət göstərmiş və daim mövcud siyasi reallığa uyğunlaşdırılmışdır. Müasir dövrdə qütbləşmə uğrunda aktiv mübarizə gedir. Bu qarşıdurmada əsas siyasi aktorlardan biri də AB-dir. 27 üzvə malik bu təşkilat özünün genişlənmə siyasətinə hələ də davam etdirir. Beynəlxalq təşkilatlarda mühüm yerə malik olan dövlətlərdən biri də Cənubi Qafqazda əsas aktor olan Azərbaycandır. AB-yə üzv olmasa da birliklə iqtisadi-siyasi əlaqələri dinamik bir şəkildə davam etdirməkdədir. Bu uzlaşmalar Ulu Öndər Heydər Əliyevlə başlamış Prezident İlham Əliyevlə daha da inkişaf etmişdir. Xarici siyasətində balans siyasəti yeridən Azərbaycan həm Qərblə, həm də Asiya ölkələri ilə qızıl ortanı yerinə yetirir. Genişlənmə potensialına malik olan iqtisadi-siyasi bir birliklə Azərbaycanın dayanıqlı əlaqələr qurması onun gələcək fəaliyyətinə müsbət təsir edəcək, mütləq!

Açar sözlər: *Avropa Birliyi, Azərbaycan, təsir vektorları, strategiya, güc balansı.*

GİRİŞ

Məqalədə genişlənmə potensialına malik iqtisadi-siyasi birlik olan AB-nin strategiyası, qütblük uğrunda gedən mübarizədə yeri, rolu və Cənubi Qafqazda mühüm dövlət olan Azərbaycanla münasibətlərinin vektorlarını öyrənmək və balans siyasəti münasibətlərinin doğru şəkildə inkişafına imkan yaratmağın yolları qeyd edilmişdir.

Avropa Birliyi. Birliyin ilk toxumlarını İkinci Dünya müharibəsindən sonrakı iqtisadi, sosial və siyasi dağıntıda axtarmaq lazımdır. İtaliya, Fransa və Almaniya kimi müharibədən ən çox zərər çəkən ölkələrdə Avropa federalizmini müdafiə edən fikirlər 1940-cı illərin ikinci yarısında ortaya çıxmağa başladı. Avropada inteqrasiya prosesini federasiya tərəfdarları ilə funksionalistlərin fikirləri sürətləndirirdi. Federasiya tərəfdarları dialoqa və yerli, regional, milli və Avropa miqyasında güc mərkəzləri arasında bir-birini tamamlayan münasibətlərin qurulmasına tərəfdar idi. Funksionalist yanaşma isə suverenliyin milli səviyyədən icma səviyyəsinə tədricən ötürülməsini müdafiə edirdi. Bu iki baxış bu gün bir-birinə bağlıdır ki, demokratik və müstəqil Avropa təsisatlarına vahid bazar, pul siyasəti, və iqtisadi siyasət kimi birgə fəaliyyət göstərən ayrı-ayrı dövlətlərdən daha effektiv olan sahələrdə milli və regional hakimiyyət orqanları qədər məsuliyyət verilməlidir. Bəzi siyasi və intellektual dairələr hesab edirlər ki, "Avropa Birləşmiş Ştatları" adlandırıla biləcək federal struktur qitədəki böyük müharibələrə son qoymağın ən təsirli yolu olacaqdı. Lakin 1948-ci ildə Haaqada keçirilən Avropa Konfransında məlum oldu ki, bu dairələrin ümid bəslədiyi fövqəlmilli quruluş reallıqdan uzaqdır. Konfransın fəxri sədri kimi çıxış edən Böyük Britaniyanın keçmiş Baş naziri Uinston Çörçill ölkəsinin milli suverenliyə xələl gətirən dövlətüstü strukturda iştirak etməyəcəyini bəyan etdi [Gomien, 2005]. Konfransın nəticəsi olaraq Avropa Şurası yaradıldı.

Fransanın yüksək rütbəli bürokratı Cean Monnet tərəfindən hazırlanan və Şuman tərəfindən açıqlanan planda Qərbi Almaniya ilə Fransanın kömür və dəmir ehtiyatlarının və hasilatının bir araya gətirilməsi, Avropa dövlətlərinin bu birliyə qoşulmasına icazə verilməsi nəzərdə tutulurdu. Bu plan Fransa üçün iki aspektdən əhəmiyyətli idi. Birincisi, yaradılacaq icma Almaniya ilə Fransa arasında mümkün müharibənin

qarşısını almağa kömək edəcək. İkincisi ,Fransanın sənaye inkişafı üçün lazım olan kömür və dəmir Almaniyanın suverenliyi altında olan Rur bölgəsinin resurslarından təmin ediləcək. Qərbi Almaniya isə icmanı ölkənin beynəlxalq nüfuzunu artıracaq mühüm alət kimi qəbul etmiş və Şumanın planını dəstəkləmişdir. Almaniya və Fransa iqtisadiyyatları ilə qarşılıqlı asılılıq münasibətlərində olan Belçika, Hollandiya və Lüksemburq (Benilüks ölkələri) üçün bu planda iştirak etməmək variantı ağılsızlıq olardı. İtaliyanın nöqteyi-nəzərindən qurulacaq icma kommunist təhlükəsinə qarşı təminat idi. Onlar müxtəlif səbəblərdən hərəkət etsələr də, unutmaq olmaz ki, Fransa, Qərbi Almaniya, İtaliya, Belçika, Lüksemburq və Hollandiya hökumətləri Avropa torpaqlarında növbəti böyük müharibənin qarşısını almağa razı oldular. Kömür və dəmir istehsalının birləşdirilməsi icma üzvlərinin bir-birlərinə qarşı istifadə edə biləcəkləri silahlar istehsal etməsinə də mane olacaqdı. 1951-ci il aprelin 18-də aparılan danışıqlar nəticəsində və ABŞ-nin təşviqi ilə altı ölkə Paris müqaviləsi imzaladı və Avropa Kömür və Polad Birliyi yaradıldı [Karluk, 1998]. Müqaviləyə görə, kömür və dəmir hasilatı ilə bağlı qərarlar dövlətlərüstü funksiyalar və bürokratik işlərlə qəbul edilirdi. Sözügedən qurumun ilk prezidenti Cean Monnet oldu.

Roma müqaviləsi. 1956-cı ildə Yaxın Şərqdə başlayan Süveyş kanalı böhranı, Əlcəzairin Fransaya qarşı başlatdığı müstəqillik müharibəsi və Sovet İttifaqının Macarıstanı işğal etməsi kimi proseslər baxışları dəyişdi [Dinan, 1994].

AKDB-yə (Avropa Kömür və Dəmir Birliyi) üzv dövlətlər 1955-ci ildə İtaliyada keçirilən Messina Konfransında Spaakın sədrliyi ilə bir araya gəldilər və Avropa inteqrasiyasının necə formalaşması lazım olduğunu və bunun kömür və polad sektorları ilə məhdudlaşıb-məhdudlaşdırılmayacağını müzakirə etdilər [Bruna, 2019]. Bu konfransda qəbul edilən qərarların işığında 1957-ci ilin martında biri Avropa İqtisadi Birliyini (AİB), digəri Avropa Atom Enerjisi Birliyini (AAEB) yaradan Roma müqavilələri kimi tanınan sənədlər imzalandı [İbadov, 2004]. Bu müqavilə ittifaqın əsasını qoyan müqavilədir. Bu müqavilədə önəmli müddəa azad bazarın yaradılmasıdır. "BeNiLüks ölkələri" kimi tanınan Belçika, Niderland, Lüksemburq da bu ittifaqda mühüm rol oynayr. Fransa və Almaniya arasında qalan bu dövlətlər bu iksinin savaşlarından çox əziyyət çəkib. Benilüks Avropa Kömür və Polad birliyinin yaradılmasında iştirak edənlərdəndir. Fransa Prezidenti Şarl De Qoll İngiltərədən ehtiyat edirdi. İngiltərəni Avropada Amerikanın kölgəsi kimi görürdü. Ona görə onu Aİ-yə almırdı. Fransa Amerika tərəfdarı olmayan bir ölkədir. Qoll Aİ-ni Amerikaya qarşı bir ittifaq kimi yaratmaq niyyətində idi. Amerika Körfəz müharibəsində Səddamla savaşanda Fransa bunu bir fürsət kimi görmüşdü. Deyirdi ki, Amerikanın gücünü körfəzdə tükətmək lazımdır.

Roma müqaviləsi ilə birliyin 4 əsas institutu yaradıldı. Ən böyük mərkəzi orqanları Avropa Komissiyası, Parlament Assambleyası, Nazirlər Şurası və Ədalət Məhkəməsidir. Bu müqavilə ilə "üç pilləli sistem" yaradıldı. Birinci pillə Avropa Kömür və Polad Birliyinin və Atom-Enerji Birliyini birləşdirən Avropa İttifaqından ibarət oldu. İkinci pillə ittifaqın xarici və təhlükəsizlik siyasəti ilə bağlı oldu. Üçüncü pillə daxili işlər və hüquq (ədliyyə) sahəsində əməkdaşlığa aid oldu. Birincisində Avopa Parlamenti və Komissiyası daha artıq rola malikdir. İkinci və üçüncüdə nəzarətə Nazirlər Şurası baxır. Avrozonaya girən Avropa dövlətləri öz valyutalarından imtina edərək avroya keçid etmişlər, lakin Birləşmiş Krallıq, İsveç və Danimarka buna aid deyil [İbadov, 2004].

Roma müqaviləsinin ümumi məqsədləri aşağıdakılardır:

- Daxili bazarda ticarət üçün bütün sədlərin aradan qaldırılması və ümumi bazarın yaradılması.
- Ölkələr üçün "ümumi gömrük taarifi"nin yaradılması.
- Üzv dövlətlər arasında malların, kapitalın, xidmətlərin və şəxslərin sərbəst hərəkətinə maneələrin aradan qaldırılması.
- Vahid kənd təsərrüfatı siyasətinin yaradılması.
- Avropa Sosial Fondunun və Avropa İnvestisiya Bankının yaradılması.

AB-nin genişlənməsi. İngiltərə, İrlandiya və Danimarka 1961-ci ildə Aİ-yə üzvlük üçün müraciət etmişdi. Fransadan başqa digər ölkələr İngiltərənin üzvlüyünə müsbət yanaşsa da, o zamankı Fransa prezidenti Şarl de Qoll ölkənin Kontinental Avropadan çox fərqli olduğunu, iqtisadi çətinliklər yaşadığını, hərbi və diplomatik baxımdan ABŞ-dən asılı olduğunu iddia edirdi. Bu səbəbdən Birliyin inkişafına mane olacaq deyə düşünürdü. İngiltərə 1967-ci ildə yenidən müraciət etdi və eyni səbəblərdən bir daha qəbul edilmədi. Bu ölkələr üçün genişlənmə prosesi 1969-cu ildə De Qollun Fransa prezidentliyindən istefa verməsindən sonra başlamış və üzvlərin 1973-cü il yanvarın 1-də Avropa İttifaqına daxil olması ilə başa çatmışdır [Aktan, 2019]. İngiltərə 1975-ci ildə sorğu keçirdi və ictimaiyyətə "Qalaq, yoxsa gedək?" sualı verildi. Həmin gün xalqın 67 faizi "qalaq" cavabını vermişdi [Eichenberg və Dalton, 1993]. 1980-

ci illərdə Marqaret Tetçer Aİ ilə maliyyə münasibətlərini problemli hesab edən siyasətçilərdən biri idi. Fransaya büdcədən verilən kənd təsərrüfatı subsidiyalarının yüksək nisbətinə görə Tetçer İngiltərənin hər il büdcəyə verdiyi töhfənin bir hissəsini geri alacağını şərtləndirdi və bu tələb müsbət qarşılandı.

Avropa İttifaqında genişlənmə davam etdi. 1961-ci ildə Aİ ilə assosiasiya sazişi imzalayan Yunanıstanla münasibətlər 1967-ci ildə Polkovniklər Xuntasının hakimiyyəti ələ keçirməsi ilə dayandırıldı. 1974-cü ildə Hərbi Xuntanın idarəçiliyi mülki şəxslərə buraxması ilə demokratik hökumət əldə edən Yunanıstan 1975-ci ildə Aİ-yə tam üzvlük üçün müraciət etmişdi [Dura və Atik, 2003]. Ərizə ittifaq daxilində Yunanıstanın həm siyasi, həm də iqtisadi baxımdan üzv olmağa hazır olmadığı və digər üzv dövlətlərlə ortaq dəyərləri paylaşmadığı ilə bağlı narahatlıqlarla qarşılandı. Altı illik danışıqlar prosesindən sonra üzv dövlətlər Yunanıstanın demokratikləşməsi və iqtisadi inkişafının Yunanıstanı istisna etməkdənsə, İttifaq daxilində daha effektiv şəkildə əldə edilə biləcəyini müdafiə etməyə başladılar və Yunanıstan 1981-ci il yanvarın 1-də Aİ-yə üzv oldu.

Üçüncü genişlənmə isə 1986-cı ildə İspaniya və Portuqaliya ilə oldu. İber yarımadasının genişlənməsi kimi də təyin olunan üçüncü genişlənmə İspaniya və Portuqaliyanın 1986-cı il yanvarın 1-də Aİ-yə üzv olması ilə baş verdi [Karluk, 1998]. Bu iki ölkə üzvlük üçün müraciət etdikdə, İttifaqla aralarında siyasi və iqtisadi inkişaf fərqliliyinə görə qəbul edilib-edilməyəcəyi ilə bağlı çoxlu müzakirələr gedirdi. İspaniya və Portuqaliyanın üzv olduqları təqdirdə həm kənd təsərrüfatında, həm də işçilərin sərbəst hərəkətində üzv dövlətlərə iqtisadi yük yarada biləcəyi ilə bağlı narahatlıq uzun müddətdir ki, Aİ-nin gündəmini zəbt edirdi. Lakin Aralıq dənizinin Aİ üçün geosiyasi əhəmiyyəti və o dövrdə aparılan genişlənmə siyasətinin uğuru bütün bu mübahisələrin öhdəsindən gəlməyə imkan verdi.

Avropa Birliyinin "Yeni qonşuluq" siyasətində Azərbaycan. "Soyuq müharibə" dövründə əsası qoyulan Avropa Birliyi Şərq blokunun parçalanması ilə özünü yenilədi və inteqrasiyanı sürətləndirdi. Təhlükəsizlik təhdidlərinin şaxələndirildiyi belə bir mühitdə AB qonşuluq siyasətini aktivləşdirdi. AB-nin qonşuları ilə münasibətlərinin ölçüsünü fərqləndirən Avropa qonşuluq siyasəti Belarus, Ukrayna, Moldova, Aralıq dənizi və Qafqaz dövlətlərini əhatə edirdi. Son zamanlar aşkar edilmiş təbii sərvət ehtiyatları sayəsində beynəlxalq aləmdə önəm qazanan Azərbaycanla müəyyən səviyyəli əlaqələrə malik olan AB qonşuluq siyasəti ilə Azərbaycanda daha səmərəli mövcud olmaq istəyini nümayiş etdirmişdi. AB-nin irəli sürdüyü Avropa qonşuluq siyasəti də Azərbaycan üçün yeni qapılar açmışdı. Demək olar ki, Qafqaz üzrə xüsusi nümayəndənin təyin olunması ilə AB-nin Azərbaycandakı maraqlarına görə gözləntiləri və maraqları artmışdı. Gürcüstanda baş verən "Məxməri inqilab" AB-nin Qafqaza, xüsusən də Azərbaycana baxışına təsir etmişdi. AB-nin bəzi üzvləri Azərbaycanı qonşuluq siyasətinə daxil etməzdən əvvəl Türkiyənin üzvlük məsələsini həll etməyi məsləhət görmüşdülər. Yəni deyirdilər ki, Türkiyə üzv olduqdan sonra bu siyasəti həyata keçirək. Lakin bunu gözləmədilər və əlaqələri qurdular.

Qonşuluq siyasətində AB-nin əsas məqsədi Azərbaycanı öz siyasi və iqtisadi orbitində saxlamaq idi. AB müəyyən şərtlər daxilində yardım göstərməklə Azərbaycandakı maraqlarını qorumağı qarşısına məqsəd qoymuşdu [Macfarlane, 1999]. AB qonşuluq siyasəti ilə Azərbaycana qısa və ortamüddətli üzvlük vəd etməsə də, qısa və ortamüddətli perspektivdə Türkiyə və Balkan dövlətləri üçün üzvlüyün mümkün olduğunu bəyan etmişdi. AB qonşuluq siyasəti çərçivəsində Azərbaycanın vahid bazara inteqrasiyasını hədəfləmişdi. AB deyirdi ki, Şengen vizası gələcəkdə Gürcüstan və Ukraynaya verilə bilsə də, müharibə və qaçqın problemi kimi səbəblərdən Azərbaycan üçün keçərli olmayacaq. Buna baxmayaraq, vahid bazara inteqrasiya prosesi çərçivəsində Azərbaycan üçün viza rejiminin sadələşdirilməsi vəd edilmişdi [Özen, 2004].

Sovet İttifaqının dağılmasından sonra bipolyar sistemdə köklü dəyişikliklər baş verdi. Bu prosesdə daha çox aktiv siyasətə keçən Avropa İttifaqı coğrafi mövqeyi ilə yanaşı, neft və təbii qaz kimi enerji ehtiyatlarına görə də Azərbaycanla yeni əlaqələr qurmağa başladı. Bu kontekstdə Avropa İttifaqı TACİS, EMPİ və ENİ Proqramları çərçivəsində Azərbaycana iqtisadi yardım göstərmiş, tarixi İpək Yolu və enerji siyasətlərini yenidən aktivləşdirmişdi. Avropa Birliyinin həyata keçirdiyi bu siyasət və onun Azərbaycana ayırdığı maliyyə yardımı nəticəsində hər iki tərəf arasında yaxınlaşma yarandı. Tərəfdaşlıq və Əməkdaşlıq sazişi qüvvəyə mindikdən sonra Avropa Birliyi ilə Azərbaycan arasında bu yaxınlaşmanın hüquqi əsasları qoyuldu. Bu qarşılıqlı yaxınlaşma bəzi problemlərə gətirib çıxardı. Avropa Birliyinin Mərkəzi və Şərqi Avropa dövlətlərinə doğru genişlənməsi özü ilə problemlər gətirdi. Rusiya bundan çox narahat idi. Bu kontekstdə Avropa İttifaqı Azərbaycanı 2004-cü ildə Avropa Qonşuluq Siyasətinə, 2009-cu ildə isə Şərq Tərəfdaşlığı Siyasətinə daxil

etmişdi.

AB-yə üzv olmaq istəyən ölkələr insan haqlarına və ortaq dəyərlərə hörmət etməli, qanunun aliliyini təmin etməli, səmərəli və şəffaf idarəetmə qurmalı və s. Belə sahələrdə qaydalara əməl etmək əzmində olduqlarını göstərməlidirlər. Qeyd olunan istiqamətlərdə Azərbaycan Respublikası növbəti vəzifələrə nail olmaq üçün ardıcıl təşəbbüslər göstərməklə öz mövqeyini nümayiş etdirmişdir. Bu amilə əsasən, 2005-ci il iyunun 1-də Prezident İlham Əliyev Azərbaycanın Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında saziş imzaladı və bura AB-nin təklifi və Azərbaycanla bağlı fəaliyyət planının həyata keçirilməsi, iki ölkə arasında əlaqələrin gücləndirilməsini daxil etmişdir. Həmçinin AB və Azərbaycan arasında koordinasiyalı və səmərəli iş aparılması kimi lazımi məsələləri bəyan edilmişdir [Macfarlane, 1999]. Bundan əlavə, imzalanmış sənəddə AB ilə demokratikləşmə, insan hüquqları, nəqliyyat, hüquqi, iqtisadi və siyasi, o cümlədən təhsil, sosial və digər əməkdaşlıq sahələrində işçi qruplarının yaradılması da nəzərdə tutulmuşdu.

AB ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi 1996-cı ilin aprelində imzalandı və 1999-cu ilin iyulunda qüvvəyə mindi. Beləliklə, AB ilə Azərbaycan arasında əlaqələrin ticari və iqtisadi miqyasının genişləndirilməsi istiqamətində ilk addım atıldı. AB-Azərbaycan tərəfdaşlıq prioritetləri Avropa Qonşuluq siyasətinin dəyər və prinsiplərini əks etdirir və bunlara aşağıdakılar daxildir:

- Siyasi institutların, vətəndaş cəmiyyətinin gücləndirilməsi,
- iqtisadi inkişaf və bazar imkanları,
- iqtisadi-siyasi əlaqələr, enerji səmərəliliyi, ətraf mühit və iqlim fəaliyyəti, insan haqları, hüquqi dövlət prinsipləri.

AB ilə Azərbaycan arasında imzalanmış bu saziş demokratik dəyərlər, insan haqları, mədəniyyət məsələləri, cinayət və cinayətkarlarla mübarizə, ekoloji problemlər, texnoloji inkişaflar və telekommunikasiya, nəqliyyat və gömrüklə bağlı məsələləri, o cümlədən neft və təbii qaz kimi enerji ilə bağlı məsələləri əhatə edir və qarşılıqlı əməkdaşlığı nəzərdə tuturdu. Həmçinin AB ilə Azərbaycan arasında dövlət və hökumət başçıları, nazirlər və parlament üzvləri səviyyəsində siyasi dialoq da institusionallaşdırılır. Tərəfdaşlıq və Əməkdaşlıq sazişindən sonra qarşılıqlı sazişlər imzalanmış, Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı Siyasəti Azərbaycana tətbiq edilmişdir.

Neft və təbii qaz kimi enerji resurslarının beynəlxalq aləmdə getdikcə daha çox əhəmiyyət kəsb etməsi, Yaxın Şərq neftindən asılılıq və mövcud ehtiyatların sürətlə azalması AB dövlətlərini yeni həll yollarının axtarışına daxil etmişdi. Bu amillərə görə AB dövlətləri diqqətlərini Azərbaycanın neft və təbii qaz ehtiyatlarına yönəltmişdilər. Azərbaycanın xarici ticarətdə ən böyük payı AB dövlətlərinə məxsusdur. AB ilə Azərbaycan arasındakı sıx əlaqələr iki ölkə arasında ticarət əlaqələrinə də müsbət təsir göstərdi. 1994-cü ildə imzalanan və qüvvəyə minən "Əsrin müqaviləsi"ndən sonra Azərbaycanda Britaniya şirkətlərinin sayı artmış, Böyük Britaniyanın "British Petroleum" şirkəti liderlik etmişdi. Son zamanlar Azərbaycanda yüzdən çox Britaniya şirkəti fəaliyyət göstərir. 2004-cü ildə Azərbaycanın kommersiya tərəfdaşları siyahısında İtaliya birinci, Türkiyə isə dördüncü yerdədir. Çünki bu dövlətlərlə ticarət əlaqələrinə ərzaq, pambıq, kimya, kürü, maşın və avadanlıqlar, eləcə də neft və təbii qaz məhsulları daxildir. 2017-ci ildə Azərbaycanın 5 ticarət tərəfdaşından ikisinin AB üzvü, birinin isə namizəd dövlət olması 2017-ci ildə xarici ticarətin həcminə görə Avropa qitəsində birinci yerə çıxmasına imkan verib.

Azərbaycan AB üçün neft və təbii qaz baxımından mühüm resursa malik olmaqla yanaşı, Xəzər hövzəsi, Mərkəzi Asiya və Fars körfəzinə keçidi təmin edən mühüm marşrutdur. AB ilə Azərbaycan arasında münasibətlərin inkişafının tərəfdarı olan səlahiyyətli qurumlar dəfələrlə bəyan ediblər ki, onların əsas məqsədi Xəzər hövzəsi və Mərkəzi Asiyada neft və təbii qaz kimi ehtiyatlara çıxış əldə etmək və bu çərçivədə sabitlik əldə edildikdən sonra onları Avropaya nəql etməkdir. AB-nin üç lokomotiv dövləti ilə üç Qafqaz dövləti arasında o qədər də aydın olmayan tarixi yaxınlıq var. İngiltərə ilə Azərbaycanın, Almaniya ilə Gürcüstanın, Fransa ilə Ermənistanın yaxınlığı bu dövlətlərin Qafqazda maraqlarının formalaşmasına səbəb olmuşdur. Azərbaycanın İngiltərə ilə sıx əlaqələri var. İngiltərə ilə münasibətlərin fərqli bir ölçüyə çevrilməsi 1994-cü ilin sentyabrında imzalanan Əsrin müqaviləsi ilə Britaniya şirkəti olan British Petroleum-un rəhbərliyi ilə başladı. Hazırda Azərbaycanda bir xeyli sayda Britaniya şirkəti fəaliyyət göstərir.

Azərbaycan son 10 ildə təkcə hegemon dövlətlərə deyil, beynəlxalq təşkilatlara da sübut etdi ki, qlobal sülhün, əməkdaşlığın, yardımlaşmanın və vasitəçiliyin həyata keçirilməsində kiçik aktorların da əhəmiyyəti böyük olur. Ermənistanla aparılan konfliktdə, Rusiya-Ukrayna müharibəsində, COVID19 pandemiyasında bir kiçik actor kimi Azərbaycan sülhün, əməkdaşlığın, insani yardımların bütün prinsiplərini

icra etdi. Sülh və əməkdaşlıq üçün yaradılam Qoşulmama Hərəkatına Azərbaycan rəhbərlik etdi və bu müddətdə beynəlxalq töhfələr dünyaya çatdırılmışdı. Rusiya-Ukrayna müharibəsində Avropa Birliyi ölkələri enerji problemləri ilə üzləşdilər. Çünki onlara enerji idxalı Rusiyadan edilirdi. Rusiyaya qarşı sanksiyalar tətbiq edildikdən sonra enerji çatışmazlığı yaşandı. Bu zaman ən alternativ variant Azərbaycan enerjisi idi. Bəli, bəzən qlobal təşkilatlar kiçik aktorlara möhtac ola bilir. Çünki bura "siyasi arena"dır. Ağıla gəlməz hər yol bu arenada mübah sayılır. Azərbaycan kiçik aktorlara töhfə verdi ki, qütblük uğrunda gedən mübarizədə kiçik aktorların ayaqda qalmasının optimal variantı "balans siyasəti"dir. Azərbaycan həm qonşuları ilə, həm Amerika, həm Avropa Birliyi ilə iqtisadi, siyasi və sosial sferalarda balans siyasətini tərəzinin gözləri kimi qoruya bildi və hələ də bu siyasi vektorla davam etməkdədir.

NƏTİCƏ

18-ci əsrdə Avropada başlayan birləşmə hərəkatları 1951-ci ildə Avropa Kömür və Polad Birliyinin yaradılması ilə rəsmi xarakter almışdır. İqtisadi və kommersiya xüsusiyyətlərinə malik olan bu icma zamanla sosial, iqtisadi, hüquqi və siyasi cəhətdən dəyişmiş və 1957-ci ildə imzalanmış Roma müqaviləsi ilə Avropa İqtisadi Birliyini təşkil etmişdir. Altı ölkə ilə başlayan və hazırda iyirmi yeddi ölkəni birləşdirən bu formasiyanın məqsədi ortaq siyasi və iqtisadi inteqrasiyanı təmin etməkdir.

1970-ci illərdə bütün dünyanı əhatə etməyə başlayan qloballaşma hərəkatları ilə əlaqədar olaraq, Birliyə üzv olan ölkələrin qanunları və praktikaları da sürətli dəyişikliyə məruz qalmışdır. 1993-cü ildə qüvvəyə minən Maastrix müqaviləsi ilə Avropa İqtisadi Birliyinin adı dəyişdirilərək Avropa Birliyinə çevrilmiş, sosial-iqtisadi tərəqqi sürətlənmiş və güclənmişdir. Bu inteqrasiya hərəkatları bir-birindən fərqli iqtisadi və sosial quruluşa malik ölkələr üçün mikro və makro məsələlərdə razılığa gəlmək baxımından çox ağrılı və uzun bir prosesə gətirib çıxardı. Avropa Birliyi üçün ortaq hədəflərin müəyyən edilməsi, qurulacaq birlik siyasətlərinin ən yüksək səviyyədə formalaşması və rəqabət prinsipinə əsaslanan azad bazar iqtisadiyyatının tamamlanması baxımından əhəmiyyətlidir. Birlik yarandığı gündən genişlənməyə davam etdi. Üzv olmaq istəyənlər öz iqtisadi göstəricilərini yüksəltmək, azad bazar şəraitində rəqabətə tab gətirmək və daxili gəlirlərin yüksəlməsinə niyyətlənmişdi.

1991-ci ilin 18 oktyabrında müstəqilliyini yenidən bərpa edən Azərbaycan qısa müddətdə beynəlxalq arenada önəmli aktora çevrildi. Bunu diplomatik güclə həyata keçirdi. Buna bir çox dövlət və təşkilat şahid oldu. Onlardan biri də Avropa Birliyidir. Birlik enerji çatışmazlığını aradan qaldırmaq üçün Azərbaycanla uzlaşmağa ehtiyac duymuşdu və hələ də bu ehtiyac açıq şəkildə özünü göstərir. Qarabağ müharibəsində Birlik öz mövqeyini ortaya qoysa da, real bir nəticə olmadı. Azərbaycan diplomatiyanın bütün üsullarına əl atsa da, konflikti haqlı olaraq hərb yolu ilə bitirdi. Birlik və digər dövlətlər gördü ki diplomatiya bəzən çarəsiz qalır. Bunlarla kifayətlənməyən Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatına sədrlik etdiyi müddətdə dünya dövlətlərinə əməkdaşlıq, sülh vektorları, humanizm, diplomatiya necə olur onu aşkar bəyan etdi və hələ də bu prioritetləri əsas götürərək siyasi dəst-xəttini davam etdirir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Bruna, C. (2019, May 18). Austria to move fast to hold elections after coalition collapses. The Guardian. https://www.theguardian.com/world/2019/may/18/austrian-government-in-crisis-over-secret-strache-footage
2. Dinan, D. (1994). Ever closer union? An introduction to the European Community. London: Macmillan Press.
3. Gomien, D. (2005). Short guide to the European Convention on Human Rights (3rd ed.). Strasbourg: Avrupa Konseyi Yayınları.
4. İbadov, R. (2004). Avropa İttifaqının əsasları.
5. Karluk, S. R. (1998). Avrupa Birliği ve Türkiye (5th ed.). İstanbul: Beta Yayınları.
6. Macfarlane, N. (1999). Western engagement in the Caucasus and Central Asia. London: Royal Institute of International Affairs.
7. Özen, S. (2004). Avropa İttifaqının "Yeni qonşuluq siyasəti" kontekstində Cənubi Qafqaz. Avrasiya Strateji Araşdırmalar Mərkəzi, 1–23
8. Aktan, S. (2019, January 31). 1957'den günümüze İngilizlerin sancılı AB hikayesi: Zor girdiler, zor çıkıyorlar (Brexit). Euronews Türkiye. https://tr.euronews.com/2019/01/31/1957-den-2019-a-ingilizlerin-sancili-ab-hikayesi-zor-girdiler-zor-cikiyorlar-brexit
9. Eichenberg, R. C., & Dalton, R. J. (1993). Europeans and the European Community: The dynamics of public support for European integration. International Organization, 47(4), 507–534. https://doi.org/10.1017/S0020818300028083

10. Dura, C., & Atik, H. (2003). Avrupa Birliği Gümrük Birliği ve Türkiye. Ankara: Nobel Yayınları.

AZERBAIJAN'S RELATIONS WITH THE EUROPEAN UNION IN THE CONTEXT OF SMALL STATES IN THE INTERNATIONAL RELATIONS SYSTEM: STRATEGIC PRIORITIES AND COOPERATION STRATEGY

Elman Vidadi Valiyev
PhD candidate at the Department of Political Science and Political Management, Academy of Public Administration under the President of the Republic of Azerbaijan,
Lecturer at Mingachevir State University

SUMMARY

The European Union is an economic and political union that builds peacekeeping on the basis of cooperation, strengthens economic competition, and represents a free market economy. Since its inception, the EU has become one of the most important actors in interstate relations. The union, which began in the West, later manifested itself in the Balkans and the South Caucasus. Today, many states are still striving to become members of this union. However, the union has not yet stood on solid pillars. Britain's withdrawal from membership and the ongoing Euroscepticism movement are examples of this. In international relations, the EU has operated in different forms at different times and has been adapted to the ever-present political reality. In the modern era, there is an active struggle for polarization. One of the main political actors in this conflict is the EU. This organization with 27 members is still pursuing its expansion policy. One of the states that has an important place in international organizations is Azerbaijan, which is a major actor in the South Caucasus. Although it is not a member of the EU, it continues its economic and political relations with the union in a dynamic manner. These agreements, which began with the Great Leader Heydar Aliyev, have developed further with the stable President Ilham Aliyev. Azerbaijan, which pursues a policy of balance in its foreign policy, fulfills the golden mean with both the West and Asian countries. Establishing stable relations between Azerbaijan and an economic and political union with the potential for expansion will definitely have a positive impact on its future activities!

Keywords: *European Union, Azerbaijan, vectors of influence, strategy, balance of power.*

ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА С ЕВРОПЕЙСКИМ СОЮЗОМ В КОНТЕКСТЕ МАЛЫХ ГОСУДАРСТВ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ: СТРАТЕГИЧЕСКИЕ ПРИОРИТЕТЫ И СТРАТЕГИЯ СОТРУДНИЧЕСТВА

Эльман Видади Велиев
Докторант кафедры политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики,
преподаватель Мингячевирского Государственного Университета

РЕЗЮМЕ

Европейский союз – это экономическое и политическое объединение, которое строит миротворческую деятельность на основе сотрудничества, укрепляет экономическую конкуренцию и представляет собой свободную рыночную экономику. С момента своего создания ЕС стал одним из важнейших субъектов межгосударственных отношений. Союз, зародившийся на Западе, позднее проявил себя на Балканах и Южном Кавказе. Сегодня многие государства все еще стремятся стать членами этого союза. Однако союз пока не имеет прочных основ. Примерами этого служат выход Великобритании из ЕС и продолжающееся движение евроскептицизма. В международных отношениях ЕС действовал в разных формах в разное время и адаптировался к постоянно меняющейся политической реальности. В современную эпоху идет активная борьба за поляризацию. Одним из основных политических акторов этого конфликта является ЕС. Эта организация, насчитывающая 27 членов, продолжает проводить политику расширения. Одним из государств, занимающих важное место в международных организациях, является Азербайджан, играющий ключевую роль на Южном Кавказе. Несмотря на то, что Азербайджан не является членом ЕС, он продолжает динамично развивать экономические и политические отношения с союзом. Эти согла-

шения, заложенные при великом лидере Гейдаре Алиеве, получили дальнейшее развитие при стабильном президенте Ильхаме Алиеве. Азербайджан, придерживающийся политики сбалансированности во внешней политике, придерживается золотой середины как с Западом, так и с азиатскими странами. Установление стабильных отношений между Азербайджаном и экономическим и политическим союзом с потенциалом расширения, безусловно, окажет положительное влияние на его будущую деятельность!

Ключевые слова: *Европейский Союз, Азербайджан, векторы влияния, стратегия, баланс сил.*

Rəyçi: Siyasi elmlər doktoru Elşad Mirbəşir oğlu

Məqalə redaksiyaya daxil olub: 01.08.2026
Çapa qəbul olunub: 29.08.2026
The date of the admission of the article to the editorial office: 01.08.2026
Accepted for publication: 29.08.2026